

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 3 (23.645)

7 yanvar 2021-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Yanvarın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib. Prezident İlham Əliyev müşavirədə çıxış edib.

Dövlətimizin başçısı bildirib ki, 2020-ci ilin əsas yekunu torpaqlarımızın işğaldan azad olunmasıdır. Azərbaycan 44 gün ərzində tarixi qələbə qazanaraq öz torpaqlarını azad edib, düşmənə sarsıdıcı zərbələr endirib və Ermənistanı məğlub edib.

2020-ci ildə ölkəmizdə parlament seçkilərinin keçirildiyini, siyasi partiyalarla dialoqun gücləndiyini, kadr islahatlarının davam etdirildiyini deyən Prezident İlham Əliyev pandemiyanın fəsadlarının aradan qaldırılması istiqamətində görülən işlərdən danışıb.

Ölkəmizin başçısı diqqətə çatdırıb ki, ötən il iqtisadiyyat 4 faizdən bir qədər çox azalsa da, qeyri-neft sənayemiz 11 faizdən çox artıb. Bundan əlavə, kənd təsərrüfatı, orta aylıq əməkhaqqı və pensiyalar da artıb, Neft Fondunun vəsaiti azalmayıb, əksinə, o da artıb. Bununla da Azərbaycan öz valyuta ehtiyatlarını qoruyub. Bildirilib ki, Cənub Qaz Dəhlizi, onun son seqmenti olan TAP tam istismara verilib. Tarixdə ilk dəfə Azərbaycan qazının artıq Avropa məkanında olması tarixi nailiyyətimizdir.

Prezident İlham Əliyev beynəlxalq qurumların ölkəmizdə gedən işlərə yüksək qiymət verdiyini, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycanın reytinqinin artdığını, 190 ölkə arasında 28-ci yerdə qərarlaşdığını və 10 ən islahatçı ölkə sırasına daxil edildiyini bildirib. Dövlətimizin başçısı Davos Dünya İqtisadi Forumunun hesabatında Azərbaycanla bağlı uğurları da sadalayıb, işğaldan azad olunan torpaqlarda bu il geniş quruculuq işlərinin aparılacağını vurğulayıb, bununla bağlı tapşırıqlarını verib.

Müşavirədə məruzələr dinlənilib.



### İcmal

## Əsrin dörddə birində bir əsrlik möhtəşəm inkişaf yolu keçən doğma məkan NAXÇIVAN

### *Son 25 ildəki misligörünməmiş inkişafa nəzər salmaq üçün təkcə ötən ilin son ayının ümumi mənzərəsini təhlil etmək kifayətdir*

***Ötən il 44 günlük Vətən müharibəsi nəticəsində erməni vandallarının 30 ilə yaxın bir müddətdə zəbt etdikləri tarixi Azərbaycan ərazilərinin işğaldan azad olunması, ölkəmizin ərazi bütövlüyünün təmin olunması – Azərbaycanın parlaq qələbəsi ilə tarixə həkk oldu. 2020-ci il noyabr ayının 10-da Ermənistanın hərbi kapitulyasiyasını təsdiqləyən üçtərəfli Bəyanatın imzalanması, eyni zamanda Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yolları vasitəsilə birləşdirmək istiqamətində, Naxçıvanın gələcək inkişafı və təhlükəsizliyi baxımından da mühüm tarixi addım oldu. Çünki Bəyannaməyə əsasən artıq Naxçıvanın Azərbaycanın digər bölgələri ilə yeni kommunikasiyaları yaranacaq, "Şərqin qapısı" sayılan muxtar diyarımızın Türkiyə və bütövlükdə, Türk dünyası üçün tranzit əhəmiyyətliliyi daha geniş müstəvidə aktuallaşacaq, diyarımız daha böyük iqtisadi-siyasi dəyər və nüfuza sahiblənəcək.***

Tarixə nəzər saldıqda görərik ki, Naxçıvan ötən əsrin 90-cı illərinin əvvəllərində bu gün artıq müstəqil Azərbaycanın, Azərbaycançılıq ideologiyasının əbədilik rəmzinə çevrilən ulu öndər Heydər Əliyevin qətiyyətli siyasi fəaliyyəti nəticəsində erməni qəsbkarlarının işğalından xilas ola bildi. Ümummilli liderin diyarımızı məhv olmaq təhlükəsindən xilas etmək üçün göstərdiyi misilsiz xidmətlərindən biri də o idi ki, dahi şəxsiyyət hələ sağlığında Naxçıvanla bağlı arzularının ideal gerçəkləşməsinin, quruculuq xəttinin sonrakı dövrlərdə də uğurlu davamının əsasını qoydu. Zaman sübut etdi ki, ulu öndərin 16 dekabr 1995-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında muxtar dövlətin başçısı seçilən cənab Vasif Talıbova böyük siyasi uzaqgörənliklə yüksək etimad göstərməsi, Naxçıvan kimi mühüm geostrateji əhəmiyyətli bir diyarı gələcəyin görkəmli siyasi xadimi kimi məhz ona etibar etməsi Heydər Əliyev siyasətinin təntənəsidir. Naxçıvan son 25 ildə blokada mənqənəsindən muxtar respublika rəhbərinin gərgin fəaliyyəti, düşünülmüş qətiyyətli siyasi addımları, inkişaf, tərəqqi strategiyası nəticəsində xilas ola bildi. Qədim diyarımızın Azərbaycandan ərazi etibarilə ayrı düşməklə yaranan çoxsaylı problemlərinin unikal həlli, muxtar respublikamızın hərtərəfli sosial-iqtisadi inkişafına nail olunması, diyarımızın geostrateji əhəmiyyətliliyinin qorunması və beynəlxalq nüfuzunun artırılması bu gün dövlətçilik tariximizdə Heydər Əliyev ideyalarına siyasi sadiqlik əzmi, inkişafın Naxçıvan modeli, Azərbaycan dövlətçiliyinə xidmət nümunəsi kimi dəyərləndirilən mühüm tarixi mərhələni təşkil edir. Naxçıvanın son 25 ildəki misligörünməmiş inkişafı, ictimai-siyasi, sosial-iqtisadi həyatında qazanılan uğurlar haqqında ilkin qənaət formalaşdırmaq üçün təkcə ötən ilin son ayının ümumi mənzərəsini təhlil etmək belə, kifayətdir.

Dekabrın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi ilə görüşmüşdür. Ali Məclisin Sədri Azərbaycan-İran əlaqələrindən, eləcə də Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasındakı əməkdaşlıqdan bəhs etmiş, ikitərəfli münasibətlərin perspektivlərini diqqətə çatdırmışdır. Söhbət zamanı qarşılıqlı maraqdoğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Son onilliklərdə muxtar respublikada əldə edilmiş sosial-iqtisadi inkişaf rabitə və yeni texnologiyalar sahəsini də əhatə etmişdir. Əhaliyə nümunəvi rabitə xidmətinin göstərilməsi məqsədilə müasir rabitə sistemi yaradılmış, ən ucqar dağ kəndlərində belə, genişzolaqlı, yüksəksürətli internet və digər müasir telekommunikasiya şəbəkələri istifadəyə verilmişdir. Hazırda muxtar respublikada montaj tutumu 95 min 128 abunə yerlik avtomat telefon stansiyalarından 70 min 585 abonent istifadə edir. Bunlarla yanaşı, istismar olunan 214 avtomat telefon stansiyasının 195-i və yaxud 91 faizi yeni nəsil texnologiyalara əsaslanır. 39 min 203 abonent isə genişzolaqlı internet istifadəçisidir. Bu gün muxtar respublikada tam kəsintisiz telekommunikasiya sistemi mövcuddur. Naxçıvanın beynəlxalq trans-Avrasiya fiber-optik magistrallarına ikitərəfli çıxışı təmin edilmişdir. Muxtar respublikanın hazırda qlobal internet sisteminə dördtərəfli çıxışı da təmin olunmuş, bütün yaşayış məntəqələrinin genişzolaqlı sabit və 4-cü nəsil mobil internet xidmətlərindən istifadəsi reallaşdırılmışdır. Bu sahədə həyata keçirilən çoxsaylı tədbirlərin davamı kimi dekabrın 8-də Kəngərli rayonunda telekommunikasiya sistemi və yeni Rabitə Evi istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Muxtar respublika rəhbəri çıxış edərək rabitə və poçt xidmətlərinin təşkilinin bölgənin ümumi inkişafının əsas göstəricilərindən olduğunu vurğulamış, 33 minə yaxın əhalisi olan, 1 qəsəbə, 10 kənddən ibarət Kəngərli rayonunda Rabitə Evi üçün



yeni binanın istifadəyə verilməsini əlamətdar hadisə kimi dəyərləndirmişdir. Çıxışda əhalinin bütün təbəqələrinin həm stasionar, həm də mobil telefon xidməti ilə təmin edilməsinin əhəmiyyətindən bəhs olunmuşdur. Ötən dövrdə rayonda rabitə və poçt xidmətləri üzrə 52 mütəxəssis yetişdiyini diqqətə çatdıran Ali Məclisin Sədri muxtar respublikada optik kabellərin çəkilməsi və birləşdirilməsi, müasir rabitə sistemlərinin qurulması, yeni texnologiyaların tətbiqinin yerli mütəxəssislər tərəfindən həyata keçirilməsini işin keyfiyyətliliyi, kadr potensialının formalaşdırılması baxımından uğurlu nailiyyət kimi qiymətləndirmişdir.

Muxtar respublika rəhbəri kollektivə fəaliyyətində uğurlar arzulamış, rabitə və poçt xidmətlərinin nümunəvi təşkili, yaradılan şəraitdən səmərəli istifadə olunması ilə bağlı tapşırıqlar vermişdir. Sonra Ali Məclisin Sədri binada yaradılan şəraitlə tanış olmuş, Kəngərli rayon telekommunikasiya sistemini işə salmışdır. Bildirilmişdir ki, rayon ərazisində 4550-yə yaxın nömrə tutumu olan 12 avtomat telefon stansiyası quraşdırılmış və bütün yaşayış məntəqələri telefonlaşdırılmışdır. Yeni inşa olunan Rabitə Evində yerləşən 352 nömrəlik mərkəzi avtomat telefon stansiyası vasitəsilə 167 abonentə rabitə xidməti, 78 abonentə isə genişzolaqlı internet xidməti göstəriləcəkdir. Həmçinin Kəngərli rayonunda 4-cü nəsil "Naxtel"in və digər mobil operatorların baza stansiyaları mövcuddur. "Naxçıvanpoçt" publik hüquqi şəxsin Kəngərli rayon filialının müasirtipli binalarla təmin olunmuş 12 poçt bölməsində sakinlərə nümunəvi xidmət üçün hərtərəfli şərait yaradılmışdır.

Müasir çoxcəhətli inkişafı ilə dünyada tanınan müstəqil Azərbaycan Heydər Əliyev dühasının şah əsəridir. Zaman bizi bu böyük dühadan cismən uzaqlaşdırdıqca, ümummilli liderimizin zəngin siyasi irsi və dövlətçilik fəaliyyəti dərindən öyrənildikcə Onun müstəqil dövlətimizin yaranması və çoxcəhətli inkişaf yolundakı misilsiz xidmətləri daha aydın və şüurlu şəkildə dərk edilir. Dahi rəhbərin ötən əsrin 90-cı illərinin əvvəllərindən ulu diyarımız Naxçıvandan başladığı şərəfli xilaskarlıq və quruculuq missiyası Azərbaycançılıq, vətənpərvərlik örnəyi, öyrənildikcə tükənməyən milli və bəşəri xəzinədir.

Azərbaycan məhz bu fenomenal şəxsiyyətin müdrik siyasəti, qətiyyəti, uzaqgörənliyi nəticəsində müstəqil, demokratik, hüquqi və dünyəvi dövlətçilik yoluna qədəm qoyaraq inkişaf etməyə başladı. Bütün şüurlu ömrünü, məqsədyönlü siyasi fəaliyyətini müstəqil və qüdrətli Azərbaycan dövlətinin yaranmasına, ölkəmizin dünyanın inkişaf etmiş dövlətlər sırasında bərqərar olmasına həsr etməklə milli yaddaşımızda əbədiyyət rəmzinə çevrildi. Bu gün ümummilli liderimizin siyasi kursunun qətiyyət və əzmkarlıqla davam etdirilməsi nəticəsində qazanılan möhtəşəm uğurlara görə ölkəmiz məhz müstəqil Azərbaycan dövlətinin qurucusu və memarına mənən borcludur. Heydər Əliyev ideyalarının əzmkarlıqla gerçəkləşdirilməsi nəticəsində 30 ilədək işğal altında olan torpaqlarımız 44 gün ərzində müzəffər Ordumuz tərəfindən düşmən tapdağından azad olundu, ərazi bütövlüyümüz təmin edildi, Azərbaycan qüdrətli, qalib ölkə kimi dünya siyasətini nizamlayacaq dərəcədə söz və nüfuz sahibinə çevrildi. Bu il dahi şəxsiyyətin ruhunu görkəmli dövlət xadiminin işğal olunmuş torpaqlarımızı nəyin bahasına olursa-olsun azad etmək, Azərbaycanın sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü təmin etməklə bağlı vəsiyyətinə əməl olunmasının sevinci ilə, ikiqat qürur və ehtiramla yad edirik. Eyni zamanda Heydər Əliyev siyasi məktəbinin layiqli varisi olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə, Heydər Əliyev siyasi xəttinə sədaqət nəticəsində əsl inkişaf və intibah dövrünü yaşamasına görə də ulu öndərimizin ruhunu dərin minnətdarlıq hissi ilə anırıq. Ümummilli liderimizin müəllifi olduğu inkişaf strategiyasının uğurla davam etdirilməsi nəticəsində Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında inkişaf, milli birlik və həmrəylik, güclü dövlət və müstəqilliyin bəhrələrini gördükcə, Azərbaycan əbədi var olduqca, dahi şəxsiyyət, Böyük Azərbaycanlı Heydər Əliyevin əziz və müqəddəs xatirəsi, işıqlı ideyaları da əbədi yaşayacaq.

Ardı 2-ci səhifədə

Dekabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoymuş, ulu öndərin xatirəsini dərin ehtiramla yad etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, xidmət, şirkət və baş idarələrin, müəssisə və təşkilatların, ali məktəblərin, hərbi hissələrin nümayəndələri də ulu öndərin xatirəsinə ehtiramlarını bildirmişlər. Həmin gün muxtar respublikanın bütün rayon mərkəzlərində də ümummilli liderimizin əziz xatirəsi dərin ehtiramla yad edilmişdir.

Son 25 ildə muxtar respublikanı dinamik inkişaf və tərəqqi yoluna çıxaran uzaqgörən, düşünülmüş siyasət nəticəsində digər bölgələrimiz kimi, Babək rayonunun da siması inanılmaz dərəcədə dəyişmişdir. Aparılan kompleks quruculuq tədbirləri, yaradılan infrastruktur, istifadəyə verilən müasir sosial obyektlər sakinlərə göstərilən xidmətlərin səviyyəsini yüksəltməklə yanaşı, əhali rifahına və məskunlaşmaya da müsbət təsir göstərmiş, rayon mərkəzi və kəndlər böyümüşdür. Bu il Babək qəsəbəsinə şəhər, Nehrəm və Cəhri kəndlərinə isə qəsəbə statusu verilmişdir. Artıq aqrar sənaye rayonuna çevrilməkdə olan, hazırda 62 adda sənaye məhsulunun istehsal edildiyi rayonda sahibkarlıq subyektlərinin və ailə təsərrüfatlarının sayının artması istehsal olunan məhsulların satışını da zərurətə çevirmiş, Babək şəhərində müasir bazar kompleksi tikilmişdir. Dekabrın 17-də həmin kompleks istifadəyə verilmişdir.

Bu münasibətlə keçirilən tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxışında bildirmişdir ki, hazırda Babək rayonunda 5 min 900-ə yaxın sahibkarlıq subyekti fəaliyyət göstərir. Yeni bazar kompleksi sahibkarlıq müəssisələrinin, ailə təsərrüfatlarının istehsal etdikləri məhsulları satmalarına, kənd təsərrüfatı məhsulları yarmarkalarının keçirilməsinə, sakinlərin gündəlik tələbatlarını ödəyə bilmələrinə hərtərəfli şərait yaradacaq, bununla yanaşı, yeni iş yerlərinin açılması ilə əhalinin məşğulluğunun təmin olunmasına da töhfə verəcəkdir.

Ali Məclisin Sədri kompleksin qurulmasında əməyi olanlara təşəkkür etmişdir. Sonra kompleksə baxış olmuş, muxtar respublika rəhbəri bazarda ailə təsərrüfatı məhsullarının satışına üstünlük verilməsi, əhalinin tələbatının nəzərə alınması, yarmarkaların təşkili və təmizliyə riayət olunması barədə tapşırıqlar vermişdir.

Ötən il Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi, dövlət-xalq-ordu birliyi sayəsində dövlət müstəqilliyimizin əsas zəmanəti, qayəsi olan ərazi bütövlüyümüz bərpa edildi, işğal olunmuş torpaqlarımız azad edilməklə Azərbaycan tarixinin şanlı zəfər salnaməsi yazıldı. Qürurvericidir ki, Əlahiddə Ümumqoşun Ordunun hərbçiləri də Qarabağda gedən hərbi əməliyyatlarda böyük şücaət göstərmiş, torpaqlarımızın işğaldan azad olunması üçün canlarından keçərək şəhidlik zirvəsinə yüksəlmiş, qazi olmuşlar. Onlar göstərdikləri rəşadətə görə Ali Baş Komandan tərəfindən "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülmüş, orden və medallarla təltif olunmuşlar. Xalqımızın igid və mərd oğulları bu Böyük Zəfəri tariximizə öz qızıl qanları ilə yazdı, yüzlərlə şəhid verdik. Dekabrın 7-də, 14-də, 22-də, 28-də Naxçıvan Beynəlxalq Hava Limanında şəhidlərimizin qarşılanma mərasimləri olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov həmin tədbirlərdə iştirak etmişdir. Şəhid olan hərbi qulluqçularımızın üçrəngli bayrağımıza bükülmüş cənazələri hərbçilərin müşayiəti ilə mərasim yerinə gətirilmiş, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Ali Məclisin Sədri şəhidlərin xatirəsinə ehtiramını bildirmişdir.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun əsgərləri tərəfindən yaylım atəşi açılmış, sonra "Qurani-Kərim"dən ayələr oxunmuş, şəhid cənazələrinin önündən keçilmiş, şəhidlərin cənazələri doğulduqları şəhər və kəndlərə yola salınmışdır. Ali Məclisin Sədri şəhidlərin ailə üzvləri ilə görüşərək onlara başsağlığı vermişdir. Cəsur və qəhrəman oğullarımız vətənpərvərlik, torpaq sevgisi, birlik, həmrəylik rəmzi kimi qəlbimizdə əbədi yaşayacaqlar.

Muxtar respublikada şəhidlərimizə, onların ailələrinə böyük hörmət və ehtiram, qayğı göstərilməklə yanaşı, Vətən müharibəsində iştirak edən və yaralanan hərbçilərin müalicəsi, onların sağlamlıqlarının bərpası da diqqətdə saxlanılır. Dekabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Vətən müharibəsində yaralanan və Naxçıvan Qarnizonunun Hərbi Hospitalında müalicələrini davam etdirən hərbçilərlə görüşmüş, onların səhhəti və qidalanması ilə maraqlanmış, onlarla söhbət etmiş, Vətən müharibəsində göstərdikləri şücaətin qürurverici olduğunu bildirmişdir. Yaralı hərbi qulluqçu, "Azərbaycan bayrağı" ordenli mayor Təbriz Zeynalov göstərilən hərtərəfli dövlət qayğısına görə minnətdarlıq etmiş, hospitalda müalicə alan yaralı hərbi qulluqçulara hədiyyələr təqdim olunmuş, aparılan şirniyyatlar mətbəxə verilmişdir.

Son 30 ilə yaxın bir dövr ərzində muxtar respublikada əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin də uğurla davam etdirilməsinin real bəhrələrini görürük. Gənclərə göstərilən hərtərəfli dövlət qayğısı, onların mənzil şəraitinin yaxşılaşdırılması və işlə təmin olunması, güzəştli ipoteka kreditlərinin verilməsi sahəsində həyata keçirilən tədbirlər insan amilinə verilən qiymətin bariz nümunəsidir. Görülən işlər, eyni zamanda intellektual potensiallı, qeyriadi istedada malik gənclərin muxtar respublikamızın inkişafı naminə daha böyük ruh yüksəkliyi, əzmkarlıq və səylə çalışmalarına böyük stimul olur. Son illər təkcə Naxçıvan şəhərində ümumi mənzil sayı 900-ə yaxın olan 21 yaşayış binası tikilib istifadəyə verilmiş, gənclərin ipoteka kreditləri ilə mənzil sahibi olmalarına şərait yaradılmışdır. Dekabrın 29-da Naxçıvan şəhərində yeni "Gənclər şəhərciyi" yaşayış kompleksi istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov həmin tədbirdə iştirak etmiş, bu münasibətlə sakinləri təbrik edərək gənclərin sosial tələbatlarının ödənilməsi, mənzil problemlərinin həll olunması istiqamətində görülən tədbirləri dövlətin vətəndaşına, gələcəyi olan gənclərə göstərdiyi qayğının, eyni zamanda dövlət-xalq birliyinin nümunəsi kimi dəyərləndirmişdir. Ali Məclisin Sədri demişdir: ***"Ölkəmizdə ümummilli liderimiz Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsi öz bəhrələrini verir. Bu gün istifadəyə verilən yaşayış kompleksi də ölkəmizdəki inkişaf, sabitlik və firavan həyat tərzinin göstəricisidir. Bunlar mühüm amillərdir. Çünki elə ölkələr vardır ki, orada gənclərin mənzil sahibi olması üçün heç bir tədbir görülmür. Buna görə də hər bir gənc göstərilən qayğıya cavab olaraq işlədiyi sahədə fəaliyyətini düzgün qurmalı, ölkəmizin davamlı inkişafına töhfə verməlidir".***

Muxtar respublika rəhbəri kompleksin tikilməsində əməyi olanlara və təşkilatçılara təşəkkürünü bildirmiş, yaşayış kompleksində "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin kreditləri hesabına mənzil almış gənclərə orderləri təqdim etmiş, onlara rahat və firavan həyat arzulamışdır. Sonra kompleksin tikintisində əməyi olanlara hədiyyələr təqdim edilmişdir.

Sonra ümumi sahəsi 28 min 752 kvadratmetr olan, ümumilikdə, 132 mənzildən ibarət 6 binanın yerləşdiyi yeni yaşayış kompleksinə baxış olmuşdur.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvan şəhərində yeni tikiləcək "Gənclər Yaşayış Kompleksi"nin layihəsinə baxmış, 7 doqquzmərtəbəli binadan ibarət olacaq yaşayış kompleksinin təməlini atmış, tikintinin keyfiyyətlə aparılması və mənzillərin sərfəli ipoteka şərtləri ilə gənc ailələrə satışı barədə tapşırıqlar vermişdir.

Yola saldığımız 2020-ci il bəşəriyyət üçün qlobal iqtisadi və humanitar problemlərlə, pandemiyanın dünya ölkələri üçün yaratdığı qaçılmaz çətinliklərlə tarixə yazılsa da, ümummilli liderimiz Heydər Əliyevin siyasi strategiyasına əsaslanmanın nəticəsidir ki, Azərbaycanda bəşəri bəla olan pandemiya və işğalçı düşmənlə müharibə şəraitində belə, sosial-iqtisadi inkişaf dinamikası qorunub saxlanılmışdır. Ötən ilin ümumi siyasi-iqtisadi mənzərəsi deməyə əsas verir ki, muxtar respublikamızda da əhalinin rifahının yaxşılaşdırılması, yeni iş yerlərinin açılması və məşğulluğun təmin olunması sahəsində görülən sistemli tədbirlər real bəhrələrini vermişdir. Belə ki, ötən il muxtar respublikada bütün parametrlər üzrə iqtisadi sabitlik və davamlı inkişaf təmin edilmiş, mövcud resurslardan səmərəli istifadə nəticəsində makroiqtisadi göstəricilərdə artım müşahidə edilmişdir. Daxili potensialdan düzgün istifadə, yeni istehsal müəssisələrinin işə salınması sosial-iqtisadi sahələr üzrə çoxşaxəli inkişafı təmin etmiş, məşğulluq səviyyəsinin yüksəldilməsinə, sosial layihələrin uğurla həyata keçirilməsinə şərait yaratmışdır.

2020-ci ildə muxtar respublikada əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ümumi daxili məhsulun həcmi 1,1 faiz artaraq 2 milyard 908 milyon manata yaxın olmuşdur. Diyarımızın inkişafının mühüm faktorlarından biri kimi sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və rəqabətqabiliyyətliliyinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirləri də mühüm əhəmiyyət kəsb etmişdir.

Sənayenin, aqrar sektorun inkişafı, ərzaq təhlükəsizliyinin təmin olunması, elm, təhsil, səhiyyənin inkişafı, maddi-mədəni irsin qorunması və təbliği istiqamətində mühüm işlər görülmüşdür. Əsas kapitala vəsait qoyuluşlarının həcminin ilbəil artması cari ildə də muxtar respublikanın quruculuq xəritəsini xeyli genişləndirmiş, yeni istehsal müəssisələri, təhsil, səhiyyə, mədəniyyət ocaqları üçün müasir binalar, hərbi təyinatlı obyektlər tikilərək istifadəyə verilmişdir. Görülən işlər əhalinin məşğulluq səviyyəsini artırmış, cari ilin ötən dövründə muxtar respublika üzrə 943 yeni iş yeri açılmışdır.

Geridə qoyduğumuz 2020-ci ilin ötən dövründə muxtar respublikanın xarici ticarət dövriyyəsi 450 milyon 839 min Amerika Birləşmiş Ştatları dolları təşkil etmişdir. Ticarət əməliyyatlarının 86 faizi, yaxud 387 milyon 540 min Amerika Birləşmiş Ştatları dolları ixracın payına düşmüş, 324 milyon 240 min 600 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dekabrın 30-da keçirilən dördüncü sessiyasında səslənən bu təhlillər, müqayisəli iqtisadi göstəricilər belə deməyə əsas verir ki, muxtar respublikamız ötən il də dinamik inkişaf, tərəqqi yolu ilə inamla irəliləmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov sessiyada 2020-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları barədə məruzə etmişdir.

Sessiyanın gündəliyində duran digər məsələlərlə bağlı məruzələr dinlənilmiş, "Naxçıvan Muxtar Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanunu, "Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2021-ci il büdcəsinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanunu, "İşsizlikdən sığorta fondunun 2021-ci il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu səsə qoyularaq qəbul olunmuşdur. Sessiyada "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 22-ci maddəsinə müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Ali Vəzifəli Şəxsinin Mərkəzi Seçki Komissiyasının üzvləri haqqında təklifinə baxılaraq təsdiq edilmişdir.

Əsası ulu öndərimiz tərəfindən Naxçıvanda qoyulan həmrəylik və ordu quruculuğu siyasəti bu gün də uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikasında dövlət-xalq-ordu birliyinin təcəssümü, ordu quruculuğu siyasətinin tərkib hissəsi kimi müxtəlif əlamətdar günlərdə və bayramlarda əsgərlərlə görüşlərin keçirilməsi, sovqatların aparılması ənənə halını almışdır. Dekabrın 31-də – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov hərbi hissədə olmuşdur.

Ali Məclisin Sədri əsgərləri salamlamış, onları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik etmiş, çıxışında bu əlamətdar günün yaranma tarixini siyasi təhlil etmişdir. Muxtar respublika rəhbəri vurğulamışdır ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvanda əhali ümummilli liderin ətrafında birləşərək sabitlik, inkişaf yolunu seçdi, muxtar respublikanın ərazisini qorudu.1993-cü ildə ümummilli liderin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra Naxçıvanda formalaşmış Heydər Əliyev-xalq birliyi, həmrəyliyi, bütövlükdə, Azərbaycanda dövlət-xalq birliyinə çevrildi. Ulu öndərin rəhbərliyi və qətiyyəti sayəsində Azərbaycanda sabitlik yarandı, müstəqilliyimiz qorundu və hərtərəfli inkişafın əsası qoyuldu.

Ali Məclisin Sədri demişdir: ***"Ümummilli liderin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda dövlət-xalq-ordu birliyi formalaşmışdır. Bu birliyin nəticəsi İkinci Qarabağ müharibəsində öz təsdiqini tapdı. Ölkə Prezidentinin bir çağırışı ilə minlərlə insan səfərbərlik xidmətlərinə müraciət edərək könüllü cəbhəyə getməyə hazır olduqlarını bildirdilər. Vətən müharibəsində xalq-ordu birliyinin nümayişi olaraq insanlar ordumuzla həmrəylik nümayiş etdirdi, öz şəxsi təsərrüfatlarında yetişdirdikləri məhsullardan ordumuza dəstək göstərdilər. 1991-ci ilin 16 dekabrından başlanan həmrəylik 44 gün davam edən Vətən müharibəsində ölkəmizə qələbə qazandırdı, Azərbaycan torpaqları işğaldan azad edildi. Bu gün ölkəmizdəki həmrəylik həm də dövlətimizin inkişafının, insanların vətənpərvərliyinin göstəricisidir. 30 il əvvəl Naxçıvanda qəbul olunan qərar dünyada yaşayan bütün azərbaycanlıların həmrəylik gününə, həmrəylik nəticəsində qazanılmış qələbə isə dünya azərbaycanlılarının qələbəsinə çevrilmişdir. Ona görə də birliyimiz, həmrəyliyimiz hər il daha da möhkəmlənməli, hər kəs harada işləməsindən, xidmət etməsindən asılı olmayaraq ölkənin inkişafı, tərəqqisi üçün səy göstərməli, müstəqilliyimizin qorunması naminə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidir".*** Ali Məclisin Sədri əsgər və zabitlərə xidməti fəaliyyətlərində uğurlar arzulamışdır.

Hərbi hissəyə Sədərək rayonundakı yeni yaşayış binasında ikiotaqlı xidməti mənzil verilmiş, Ali Məclisin Sədri yeni mənzilin açarını hərbi hissənin zabiti Amil Rəhimliyə təqdim etmişdir. Amil Rəhimli göstərilən dövlət qayğısına görə minnətdarlıq etmişdir. Sonra Ali Məclisin Sədri hərbi hissədə xidmətin təşkili, şəxsi heyətin qidalanması və döyüş hazırlığının vəziyyəti ilə maraqlanmışdır. Gətirilmiş ərzaq məhsulları hərbi hissənin anbarına təhvil verilmiş, xidməti mənzillə təmin olunan ailəyə xalça hədiyyə edilmişdir.

*Əsrin son dörddə birində – 1995-2020-ci illərdə doğma diyarımız bir əsrdə keçilməsi mümkün olmayan böyük tarixi inkişaf və tərəqqi dövrü yaşamışdır. Bu misligörünməmiş tərəqqi ümummilli liderin inkişaf strategiyasının Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən uğurla həyata keçirilməsi, Heydər Əliyev ideyalarına sonsuz sədaqət, bu siyasi irsə kamil bələdçilik sayəsində mümkün olmuşdur. Ali Məclisin Sədri Azərbaycan Respublikasının Prezidentinin ölkəmizin, eləcə də onun ayrılmaz hissəsi olan qədim diyarımızın inkişafına göstərdiyi diqqət və qayğının işığında Naxçıvanı müasirləşən, çiçəklənən bir diyara, bütün gözəllikləri ilə dünyanın diqqət mərkəzində olan məkanına çevrilməsinə nail olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir:* ***"Naxçıvan Muxtar Respublikasında ən müasir infrastruktur yaradılır, sosial obyektlərin tikintisi geniş vüsət alıbdır. Bütün bunlar muxtar respublikanın iqtisadi və sənaye potensialını gücləndirir. Mən bütün naxçıvanlıları bu böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm. Naxçıvan rəhbərliyinə və Naxçıvanın rəhbəri Vasif Talıbova öz minnətdarlığımı bildirmək istəyirəm".***

**Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Yeni yaşayış binasında işlər yekunlaşmaq üzrədir

Muxtar respublikada həyata keçirilən dövlət gənclər siyasətinin mühüm istiqamətlərindən biri də gənclərin sosial problemlərinin həlli və mənzil şəraitinin yaxşılaşdırılmasıdır. Son illər təkcə Naxçıvan şəhərində ümumi mənzil sayı 900-ə yaxın olan 21 yaşayış binası tikilib istifadəyə verilmiş, gənclərin ipoteka kreditləri ilə mənzil sahibi olmalarına şərait yaradılmışdır. Bu tədbirlər paytaxtla yanaşı, muxtar respublikanın rayonlarında da ardıcıl şəkildə davam etdirilməkdədir.



Ötən ilin əvvəllərindən başlayaraq Şahbuz rayonunda gənc ailələrin mənzillərlə təmin edilməsi üçün inşa olunan yeni yaşayış binasında işlər yekunlaşdırılır. Yaşayış binasındakı mənzillərdən 20-si 3, 20-si isə 2 otaqlıdır. 3 otaqlı mənzillərin sahəsi 83 və 90, 2 otaqlı mənzillərin sahəsi isə 63 və 70 kvadratmetrdir. Binanın zirzəmisində müxtəlif xidmət sahələri və mağazalar yerləşir.

Hazırda binanın ətrafında abadlıq işləri görülür, yaxın günlərdə binanın istifadəyə verilməsi nəzərdə tutulur. Gənc ailələr ipoteka kreditlərindən yararlanaraq bu binada mənzil sahibi ola biləcəklər.

**Xəbərlər şöbəsi**

# Vətən eşqi ruhu amallarda, əməllərdə yaşayan şeiriyyət



*Araz! Bu adı ananda gözümüzün qarşısına çağlayan, özünü o taydan bu taya vuran, kükrəyib coşan Araz canlanır. Xalqımızın unudulmaz şair oğlu Məmməd Araz bu adın layiqli daşıyıcısıdır. Onun misraları da Araz çayı kimi kükrəyib coşur, Vətən! Vətən! – deyə hayqırır.*

Araz! Özünə bu ləqəbi götürən şair Araz çayını öz şeirlərində, xüsusilə qələmə almışdır. Şair Araza vurğun idi. Onu canlı tarixə bənzədir, ulu babalarımızın yadigarı adlandırırdı. O, Arazı da özü kimi şair sanmışdır. Axıb çağladıqca insanların sinəsindən qopan qəmi, kədəri torpağa, daşa yazan şair həm də bu çayın "min il yazılası dastan"ı olduğundan bəhs etmişdir.

Məmməd Araz əsl Vətən şairi olmuşdur. O, Vətəninin əyilməz dağlarına, səfalı yaylaqlarına, çağlayan bulaqlarına, hətta kiçicik daşına belə, məhəbbətlə baxan, onların timsalında Vətənimizi öz misralarında canlandıran bir sənətkardır. O öz sözləri ilə Vətəninin daşından heykəllər yonur, bulaqlarından, göllərindən mənalı gözlər yaradır, sinəsini torpaqdan yoğurur, saçlarını ətirli gül çələngləri ilə bəzəyir, qəlbini isə Vətən odu, Vətən atəşi ilə isidir.

*Ana torpaq, ana torpaq!*
*Dilə gəldi sazım yenə!*
*Qoy eşqini varaq-varaq,*
*Ürəyimə yazım yenə.*

Bu misralarında şair Vətəninə olan eşqinin coşduğunu və ana torpağına olan sevgisini vərəq-vərəq qəlbinə yazmaq istəyini qələmə almışdır.

Məmməd Araz "Ana torpaq" şeirində Vətənini daha aydın görmək, yaxından tanımaq üçün özünü xəyala, Vətəninin səmasında süzən qartala bənzətməyə çalışmış, Vətəninin əsən mehini "avazı", "göy Xəzərini" isə ömrüboyu çalacağı sazı sanmışdır. Hətta "Ana torpaq" kəlməsinin dərin bir hikməti olduğunu vurğulamışdır.

Məmməd Araz həm də təbiət vurğunu idi. O, Vətəninin təbii gözəlliklərindən ilham alırdı. "Göy-göl" şeirində gölü ziyarət edən şair onun gözəlliyinə heyran qalmış və bu misraları qələmə almışdır:

*Bir səhər gördüm ki, durulub yatır,*
*Kəpəzin dibində burulub yatır.*
*Qovulan ceyrantək yorulub yatır,*
*Daş atdım, diksinib oyandı Göy-göl.*

Şairin yaradıcılığında Vətən təbiətinin gözəlliklərini vəsf edən şeirləri ilə yanaşı, bu gözəllikləri qorumağa səsləyən misraları da vardır. Bu misralar damarlarında vətənpərvərlik qanı axan hər bir kəsin ürəyini riqqətə gətirməyə bilməz. Məmməd Araz "Azərbaycan dünyam mənim" şeirində Vətənini ən gözəl misralarla vəsf etmişdir. Azərbaycanı bir qayaya, qayalarda bitən nadir bir çiçəyə bənzətmişdir:

*Azərbaycan-qayalarda bitən bir çiçək,*
*Azərbaycan çiçəklərin içində qaya*
*Mənim könlüm bu torpağı vəsf eyləyərək,*
*Azərbaycan dünyasından baxar dünyaya.*

Bu şeirin ikinci bəndində isə Vətəninin mayasının nurdan yoğrulduğunu, hər daşının bir alov olduğunu qələmə almış, "Azərbaycan!" deyiləndə hamını ayağa qalxmağa səsləmişdir. Ona görə səsləmişdir ki, hər kəs Vətən üçün, Azərbaycan üçün hər zaman hazır olmalı, canından, qanından keçməlidir, "ana yurdun ürəyinə" toxunmasınlar, heç kimə də toxunmağa icazə verməsinlər deyə:

*Azərbaycan – mayası nur, qayası nur ki,*
*Hər daşından alov dilli ox ola bilər.*
*"Azərbaycan!" – deyiləndə ayağa dur ki,*
*Ana yurdun ürəyinə toxuna bilər.*

Vətənini ən gözəl misralarla vəsf edən şair Vətənindən heç nə ummur, "Qapımdan əsən küləyin bəsimdir, Vətən" deyirdi. 1992-ci ildə qələmə aldığı "Ayağa dur Azərbaycan" şeirində Məmməd Araz Azərbaycanı qəflət yuxusundan oyanmağa, əsarət zəncirlərini qırmağa, ayağa qalxmağa haraylayır:

*Nə yatmısan qoca vulkan səninləyəm!*
*Ayağa dur Azərbaycan səninləyəm!*
*Səndən qeyri biz hər şeyi bölə billik!*
*Səndən qeyri biz hamımız ölə billik.*

Bu şeirində şair Vətən oğlunu Vətənini namusunun, qeyrətinin keşiyində durmağa səsləyir, Vətən torpağı düşmən ayaqları altında tapdalanmasın deyə, sərhədlərində səd olmağa çağırır, onun bölünməz olduğunu vurğulayır. Məmməd Araz tank altında qalan körpələrin yerində olmağı, Vətən uğrunda canından keçməyə hazır olan Azərbaycan əsgərinin yanında olmağı arzulayırdı. Bu ağır günlərində Vətəninin dərdinə dözmək üçün bir parça qaya, bir ovuc torpaq olmaq istəyirdi və yazırdı:

*Milli qürur, milli qeyrət səninləyəm!*
*Səpil quma, göyər yerdə, bit qayada,*
*Gizli nifrət, açıq nifrət səninləyəm!*
*Oyat bizi, ey yaradan, səninləyəm!*

Şair ölkəmizi qoruyan oğullarına – əsgərlərinə dərin hörmət bəsləyirdi. O, əsgər andını ən müqəddəs and sayırdı, Gəray kimi, Həzi kimi əsgərləri ilə fəxr edirdi. Nəvəsinin əsgər olduğunu biləndə Məmməd Araz sevinmiş, onu hünərinin keşikçisi adlandırmışdı və "Əsgər andı" şeirində belə ifadə etmişdir:

*Hünərinə keşik çəkən*
*Nəvəm əsgər olub indi.*

Məmməd Araz Vətən uğrunda canından keçib şəhid olanların torpağa qarışdığını, nə vaxtsa buludlara doğru dikələn dağa çevriləcəyini öz misralarında belə ifadə edirdi:

*Bu torpaq üstündə ömürlük varam,*
*Əzilsəm, torpağa dağılasıyam.*
*Nə vaxtsa dikəlib bulud yararam,*
*Nə vaxtsa göyərib dağ olasıyam.*

Məmməd Araz Vətən sevgisi ilə döyünən böyük ürəyə sahib şairimizdir. O, Vətəninə olan sevgisini qələmə aldığı şeirlərində ömürlük yaşatmağa çalışmışdır. Məmməd Araz kimi hər bir "ölkə vətəndaşının" ürəyi Vətəni üçün hər zaman döyünməli, alışıb yanmalıdır. Hər bir evdə, hər bir ailədə və hər bir tərbiyəvi müəssisədə Vətənə gərəkli vətəndaşlar böyüdülməlidir.

Ölməz Xalq şairi Məmməd Arazın yaradıcılığı bütünlükdə Azərbaycançılıq ideologiyasından, milli məfkurədən qaynaqlanan qiymətli poetik xəzinədir. Şairin Vətən torpağının bütövlüyü, istiqlal uğrunda alovlu qələmi ilə apardığı mübarizə bu gün Vətən müharibəsində igidlik, cəsurluq, ən başlıcası ilə Vətən eşqi ilə zəfər tarixi yazan gənc vətənpərvər nəslin ruhunda, amallarında, əməllərində gerçəkləşdi. Bugünkü müzəffər və vətənpərvər gənclik məhz böyük şairin "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" məramlı poeziyasının təsirilə mənən kamilləşən gənclikdir. Məmməd Araz poeziyası isə poeziya günəşi kimi Vətən məhəbbəti ilə daim alovlanaraq sönməz nuru ilə gələcək nəsillərin də yoluna işıq saçacaqdır.

**Solmaz CABBAROVA**
***Naxçıvan Dövlət Universitetinin Pedaqogika və psixologiya kafedrasının müəllimi***

***Türk dünyasının görkəmli tarixçisi Faruq Sümərdən söz açacağam. Türkiyə Cümhuriyyətinə məxsus çox yazıçılar, tarixçilər haqqında məlumatlı olsaq da, Faruq Sümərin bir tarixçi kimi xüsusi çəkisi var bizim tariximizdə. Həm də ona görə ki, onun Türk dünyasının keçmişindən bəhs edən çox əhəmiyyətli, faktlara əsaslanan araşdırma materialları mövcuddur. Şah əsəri isə türklərin əsil-kökündən söz açan, tarixi tapıntıları üzə çıxaran "Oğuzlar" əsəridir.***

## Oxunması zəruri olan kitablar

# Türkün kitabı "Oğuzlar"ın dilindən...




Bu əsərin müəllifinin həyat və yaradıcılığına nəzər salaq. 1924-cü ildə Türkiyənin Konya vilayətində anadan olub. O, İstanbul şəhərinin Heydərpaşa Müəllim Məktəbini bitirdikdən sonra İstanbul Universitetinin tarix fakültəsinə daxil olur. Bu fakültəyə daxil olması onu bir tarixçi kimi formalaşdırmış, sonra gələcəyin böyük tarixçisinin həyatı türk xalqlarının tarixi ilə çulğalaşmışdır desək, yanılmarıq. Gördüyü həyat hadisələri, tarixi gedişatlar, onun qələmini, araşdırma ruhunu dilləndirmiş, bir çox əsərlərinin yaradılmasına vəsilə olmuşdur. Amma bu araşdırmalar, sanki tarixin tozlu rəflərində göstərilməyi, öyrənilməyi gözləyən səhifələrinin yenidən açılması zamanının gələcəyini bilirdi. Bugünkü tarixə bir nəzər...

Faruq Sümər elmi çalışmalarının əksəriyyətini, əsasən, ulu atalarımız olan oğuzların tarixinə həsr etmiş, onların tarixin axarını necə dəyişdiklərini öz əsərlərində mesaj olaraq bildirmişdir. Təsadüfi deyil ki, görkəmli tarixçinin ən böyük əsəri də məhz "Oğuzlar" adlanır. Bu əsər haqqında tarixçinin özü də "yazdığım ilk və son əsər" deyərək onun necə də möhtəşəm bir abidə olduğunu gözlər önünə sərmişdir. Əsər Mərkəzi Asiyanın, Yaxın Şərqin, Şimali Afrikanın, Şərqi Avropanın tarixində mühüm izlər qoymuş türk-oğuz tayfalarının həyatını, məişətini, dastanını özündə ehtiva edir. Bu əsərlə birlikdə dünya tarixində silinməz izlər qoyan, lakin az araşdırılıb, az öyrənilən türk-oğuz tayfaları daha yaxından və ən önəmlisi obyektiv şəkildə öyrənilmişdir. Faruq Sümər öz əsərini yazarkən Anadolu torpaqlarını qarış-qarış gəzmiş, kənd adlarını, şəhər adlarını araşdırmış və təfərrüatlı qeydlər etmişdir. İki hissədən ibarət olan əsərin birinci hissəsində I göytürklərin, doqquz oğuzların tarixi və səlcuqlar, ikinci hissədə isə oğuzların toy təşkilatları, oğuz boylarından danışılır. Əsərin ən maraqlı tərəfi isə "Kitabi-Dədə Qorqud" dastanını təhlil etməsidir. Əsərdə türk sözünün maraqlı analizi də diqqətəlayiqdir. Kitabda yazılanlar: "türk" adının "törümək" (doğmaq-törətmək, dünyaya gəlmək) feilindən yarandığı haqqında A.Vamberinin fikri bizə daha doğru görünür. Bu fikrə görə, "türk" (əslində: törük, türük-türk) doğulan, dünyaya gələn deməkdir (yörük sözünün "yörümək"(yürümək) kəlməsindən yarandığı kimi). "Türk" sözü qüvvət (güc) mənasında göytürklərdən çox-çox sonra X-XIII əsrlərə aid uyğur kitabələrində müşahidə edilir, yəni türk adının meydana çıxmasından xeyli sonra gec bir zamanda və yalnız türk qövmünə aid mətnlərdə rastlanır. Bu hal sözün güc-qüvvət mənasında qədim olduğuna şübhə yaradır. Üstəlik, "türk" sözünün uyğurlar arasında "güc, qüvvət" mənasında işlədilməsi göytürklərin şanlı xatirələrindən, böyük şöhrətlərindən doğa bilər.

"Oğuzlar" əsəri bütün nüansları, diqqətəlayiq məqamları ilə Türk dünyasında yüksək qiymətləndirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu əsərin tarixi əhəmiyyətini nəzərə alaraq 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil etmişdir. Gənc nəsildə vətənpərvərliyin, tarixin, milli kökə bağlılığın və dünyagörüşünün formalaşdırılmasına xidmət edən bu kitab Naxçıvan gəncliyinin həyatında oxunan ən maraqlı kitablar sırasına daxil edilib. Kitab Azərbaycan dilinə tərcümə edilərək ümumtəhsil məktəblərinə, ali təhsil ocaqlarına və dövlət qurumlarına paylanıb. Maraqla qarşılanan bu kitabın əhəmiyyəti ondan ibarətdir ki, gənclərin tarixi dünyagörüşünə, sosial baxışına da müsbət nəticələr verib.

Azərbaycan xalqının etnogenezində mühüm yer tutan türk-oğuz tayfalarının tarixi hər bir azərbaycanlı tərəfindən öyrənilməli, mənimsənilməlidir. Tarixdən də bu haqda oxuduqlarımızı xatırlamaqda fayda var: Oğuzların adı ilk dəfə Orxon kitabələrində qeydə alınmışdır. Bu kitabələrdə onlar Göytürk hökmdarı Bilgə xaqan tərəfindən "mənim xalqım" deyə adlandırılıb. Bu qəhrəman tayfaların bir çoxunun adı hələ də şəhərlərimizdə, kəndlərimizdə yaşayır. Oğuzlar əfsanəvi Oğuz xanın altı oğlunun törəməsi olub iyirmi dörd boydan ibarət olmuşdur. Bu iyirmi dörd boy boz oxlar və üç oxlar olmaqla, iki ana qola ayrılmışdır. Boz oxlar qoluna məxsus olan boylar Gün xan, Ay xan və Ulduz xandan, üç oxlar qoluna məxsus olan boylar isə Göy xan, Dağ xan və Dəniz xandan törəmişdir. Hər bir oğuz boyunun özünəməxsus damğası və simvolu olmuşdur. Bu simvollar müxtəlif yırtıcı quş növlərində öz əksini tapmışdır. Oğuzlar tarixdə möhtəşəm dövlətlər yaratmış, imperiyalar qurmuş, tarixin axarını birbaşa şəkillndirmişlər. Oğuz-Yabqu dövləti, Böyük Səlcuq İmperiyası, Osmanlı İmperiyası, Qaraqoyunlu dövləti, Ağqoyunlu dövləti, Səfəvi dövləti bu qəhrəman tayfaların yaratdığı dövlətlərdən, sadəcə, bir neçəsidir. Oğuzlar dünyaya 1300 il yaşı olan "Kitabi- Dədə Qorqud" dastanı kimi mədəni irs incisini də bəxş etmişdir. Yaxın Şərqdə, Mərkəzi Asiyada altında oğuzların imzası olan yüzlərlə mədəniyyət abidəsi mövcuddur.

Müasir dövrdə də oğuzların nəvələri öz dövlətləri ilə dünyada təmsil olunurlar. Azərbaycan türkləri, Anadolu türkləri, İraq türkmanları, türkmənlər məhz oğuz türklərinin davamçılarıdır. Onlar müasir dünyada Azərbaycan, Türkiyə, Türkmənistan kimi güclü dövlətlərdə təmsil olunurlar. Faruq Sümər də türkün tarixini oğuzların dili ilə bəyan edərək tarixi əhəmiyyətini vurğulamışdır.

**Əminə RƏHİMLİ**

# Səhiyyə xidmətinin səviyyəsi xeyli yüksəldilib



Muxtar respublika sakinlərinin sosial rifahının yüksəlməsinə əsaslanan, səhiyyə xidmətlərinin səmərəliliyini, keyfiyyətini xeyli artırmaq məqsədi daşıyan icbari tibbi sığortanın əhatə dairəsinin daha da genişlənməsinə yol açan tibb ocaqlarının müasir tələblərə cavab verən şəkildə qurulması işi 2020-ci ildə də uğurla həyata keçirilib. Belə ki, bu istiqamətdə görülən quruculuq tədbirləri çərçivəsində Ordubad Rayon Gigiyena və Epidemiologiya Şöbəsi, Şərur rayonunun Məmmədsabir, Ordubad rayonunun Vənənd, Culfa rayonunun Camaldın kəndlərində həkim ambulatoriyaları, Şərur rayonunun Muğancıq-Mehrab, Qarabürc, Babək rayonunun Nəcəfəlidizə kəndlərində feldşer-mama məntəqələri, Duzdağ Fizioterapiya Mərkəzinin inzibati binası istifadəyə verilib. Həmçinin Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin, Şərur rayonunun Şahriyar, Ordubad rayonunun Nüsnüs və Yuxarı Əndəmic, Şahbuz rayonunun Ağbulaq kəndlərində həkim ambulatoriyalarının, Ordubad Rayon Uşaq Xəstəxanasının, Culfa Rayon Gigiyena və Epidemiologiya Şöbəsinin yenidən qurulması hazırda davam etdirilir. İnfrastruktur quruculuğu ilə yanaşı, səhiyyə müəssisələrinə 12 təcili tibbi yardım avtomobili də verilib ki, bu da tibbi personalın işini xeyli asanlaşdırmaqla yanaşı, həm də sakinlərin sağlamlığının qorunmasına, xidmətin keyfiyyətinin yüksəldilməsinə geniş imkanlar açıb.

2020-ci ildə dünyada pandemiya halını alan virusun muxtar respublikada yayılmasının qarşısının alınması sahəsində çoxmiqyaslı tədbirlər görülüb, bu məqsədlə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıb, müasir laboratoriya qurulub və lazımi tibbi ehtiyatlar alınıb. Virusla mübarizə məqsədilə səhiyyə müəssisələri ümumi dəyəri 4 milyon 700 min manatdan artıq olan tibbi avadanlıqlar, dərman və ləvazimatlar, həmçinin dezinfeksiya məhlulu ilə təmin edilib. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 20 aprel və 23 iyun tarixli sərəncamlarına əsasən dövlət tibb müəssisələrində çalışan tibb işçilərinə, həmçinin Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin və digər dövlət qurumlarının pandemiya ilə mübarizədə profilaktik dezinfeksiya tədbirləri həyata keçirən işçilərinə, aylıq vəzifə maaşlarının 1-3 misli məbləğində mükafat və müddətli əlavələr ödənilib. Bütün yaşayış məntəqələrində görülən qabaqcıl tədbirlərin, davamlı dezinfeksiya işlərinin aparılmasının nəticəsidir ki, ölkə səviyyəsində xəstələyə ən aşağı yoluxma halı məhz muxtar respublikada müşahidə olunur.

**Nail ƏSGƏROV**

Turizm

# Qış turizmi üçün əlverişli şəraitə malik olan Naxçıvan

***Azərbaycanda qeyri-neft sektorunun inkişafına güclü təkan verən sahələrdən biri də turizm sektorudur. Son illər ölkəmizin uğurlu sosial-iqtisadi inkişafı, daxili sabitliyi respublikamıza turist axınını şərtləndirən əsas amillərdəndir. Azərbaycanın coğrafi baxımdan əlverişli məkanda yerləşməsi, flora və fauna növlərinin müxtəlifliyi, Xəzər dənizi, infrastruktur təminatının yaxşılaşdırılması ölkəmizin turizm imkanlarını daha da artırır. Regionlarımızda, o cümlədən Naxçıvan Muxtar Respublikasında da turizmin müxtəlif növlərini – biznes, istirahət, sağlamlıq, idman turizmlərini inkişaf etdirmək üçün hər cür şərait yaradılıb.***



Son illər diyarımızda həyata keçirilən sosial-iqtisadi yönümlü layihələr, qəbul edilən Dövlət proqramları, imzalanan sərəncamlar turizmin daha da inkişafına səbəb olub. Muxtar respublikada çoxsaylı turizm şirkətlərinin fəaliyyəti, turizm marşrutlarının yaradılması, otellərin istifadəyə verilməsi, eləcə də peşəkar kadrların hazırlanmasına diqqətin artırılması çoxsaylı insanları bu məkana cəlb edir. Ümumilikdə, Naxçıvanda turizmin inkişafı ilə bağlı böyük addımlar atılıb.

Qeyd olunmalıdır ki, turizm təsərrüfatının inkişaf etdirilməsinin vacib şərtlərindən biri iqlimdir. Qısamüddətli, eləcə də uzunmüddətli istirahəti seçən turistlər məhz hava şəraitinin daha əlverişli olduğu ərazilərə üstünlük verirlər. Son zamanlar aparılan araşdırmalar göstərir ki, skandinaviyalı turistlərin 90 faizə yaxını isti ölkələri, Qərb ölkələri turistlərinin 50 faizi isə yaşadıqları ölkə ilə səyahət edəcəkləri yerlərin iqlim uyğunluğunu seçirlər.

Naxçıvanın iqliminin formalaşmasına onun coğrafi mövqeyi və relyefi böyük təsir göstərir. Ərazinin iqliminin beş tipə ayrılması və şimal-qərb qurtaracağının mürəkkəb oroqrafik quruluşa malik olması burada iqlim şəraitinin müxtəlifliyinə səbəb olur. Aparılan tədqiqatlara görə yayı quraq keçən soyuq yarımsəhra və quru çöl iqlimi, dağlıq tundra iqlimi insanlarda komfortluq hissi yaradır ki, bu da turistlərin istirahətinə müsbət təsir edir.

Naxçıvan Muxtar Respublikasında yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması mövsümilik anlayışını aradan qaldırmaqla davamlı turizmə nail olmağa şərait yaradıb. Qış turizm növlərini inkişaf etdirmək üçün ərazidə davamlı qar örtüyünün olması əsas şərtlərdən biridir. Çünki dağ-xizək turizminin həyata keçirilməsi məhz davamlı qar örtüyünün olmasından asılıdır. Respublikamızın dağlıq ərazilərində davamlı qar örtüyünün olması buna zəmin yaradır. Qarlı günlərin sayının və qar örtüyünün qalınlığının çox olduğu Kiçik Qafqazın Dərələyəz silsiləsinin şimal-qərb hissəsində qış turizmini inkişaf etdirmək üçün əlverişli təbii-coğrafi şərait vardır.

Müasir tələblərə cavab verən infrastrukturun yaradılması, sahibkarlığın dəstəklənməsi, biznes mühitinin yaxşılaşdırılması, turizmin inkişafı iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi muxtar respublikada turizmin ən perspektivli sahələrindən sayılan qış turizm infrastrukturunun formalaşdırılmasına da təsir göstərib. Hazırda qış turizminin inkişaf etdirilməsi prioritet istiqamətlərdən biri hesab olunur və muxtar respublika rəhbəri bu sahəyə xüsusi diqqət yetirir. Bölgələrdə qış aylarında normal istirahətə imkan verən müasir turizm obyektlərinin inşası prosesi sürətlənib. Turizmin inkişafı ilə bağlı həyata keçirilən təşkilati tədbirlər, bu sahədə qanunvericilik bazasının müasir dünya standartları nəzərə alınmaqla təkmilləşdirilməsi diyarımızı turizmin sürətlə inkişaf etdiyi regionlardan biri səviyyəsinə yüksəldib. Həyata keçirilən uğurlu turizm siyasətinin nəticəsidir ki, burada turizm üçün olduqca əlverişli olan dağ-xizək turizmi yaradılıb. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2018-ci il noyabrın 29-da Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması ilə əlaqədar Sərəncam imzalayıb. Məhz bu sərəncam bir daha göstərdi ki, diyarımız mükəmməl turizm potensialına malikdir. Elə həmin il 31 yanvar tarixli Sərəncamla təsdiq edilən "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq Ağbulaqda kənd və dağ-xizək turizminin inkişafı üçün kompleks işlər görülüb. Xizək mərkəzinin yaradılmasına isə 2018-ci ilin iyul ayından start verilib. Mərkəzdə dağ-xizək enişi, kanat yolu, əyləncə və uşaq parkları turistlərin ixtiyarındadır. Relyefi və iqlim xüsusiyyətləri idman turizminin inkişafı üçün əlverişli olan Ağbulaq Xizək Mərkəzində, həmçinin inzibati bina və yeni xidmət sahələri, kotteclər inşa edilib.






Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri turizmin inkişafı ilə bağlı Ağbulaq kəndinin nə qədər önəmli bir bölgə olduğunu deyib: ***"Ağbulaq kəndində ilin bütün fəsillərində turizmi inkişaf etdirmək mümkündür. Təbiəti, havası və müasir infrastrukturu kənddə istər yaz, yay və payız, istərsə də qış turizminin inkişafı üçün geniş imkanlar açır. Qış turizminin inkişafı sahəsindəki imkanları nəzərə alaraq kənddə dağ-xizək mərkəzinin qurulmasına başlanılmışdır. Turizmin inkişafı sahəsində həyata keçirilən tədbirlər Ağbulaq kəndini təkcə muxtar respublikada deyil, ölkəmizdə və dünyada tanıdacaqdır".***

Ağbulaq İstirahət Mərkəzində nəhəng infrastruktur yaradılıb. Ümumiyyətlə, bu istirahət məkanı turistlərə qış mövsümündə xizəklə sürüşməyə, otel və digər xidmətlərdən istifadə etməyə imkan verir.

Ümumiyyətlə, idman turizmi həm də xalqlararası həmrəyliyin, multikultural və milli dəyərlərin nümayiş etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Hər il Türkiyənin müxtəlif peşə sahiblərindən və nüfuzlu kütləvi informasiya vasitələrinin əməkdaşlarından ibarət alpinist qrupunun naxçıvanlı idmançılar ilə birgə Xocalı soyqırımı qurbanlarının xatirəsini anmaq üçün Culfa rayonu ərazisindəki hündürlüyü 2 min 415 metr olan Haçadağa ənənəvi yürüşü buna unikal nümunədir. Bu, diyarımızın ərazisinin idman turizminin ən maraqlı növlərindən olan dağ-piyada turizmi üçün geniş imkanlara malik olmasının göstəricisidir.

Ekstremal turizmə aid olan dağ xizəkçiliyinin inkişafı üçün də muxtar respublika əlverişli relyefə malikdir. Belə ki, ərazinin çox hissəsinin Kiçik Qafqazın Zəngəzur və Dərələyəz silsilələri ilə əhatə olunması, cənub-qərb yamacında dağların minimal hündürlüyünün 3000 metrdən yüksək olması və Zəngəzur silsiləsinin cənub-qərb yamacında, yüksək dağlıq qurşağın mərkəz zolağında yağıntıların çox olması (orta illik miqdarı 600 – 700 mm) buna imkan yaradır. Eyni zamanda ərazidə yayı quraq və sərin keçən soyuq iqlim tipinin olması da dağ xizəkçiliyi üçün mühüm amillərdən biridir.

Diyarımıza gələn turistlərin sayında artımın müşahidə olunması onu göstərir ki, keçirilən bir çox tədbirlər, idman yarışları turistlərdə muxtar respublikaya olan marağı xeyli artırıb.

**Ceyhun MƏMMƏDOV**

## Tibb müəssisələrinin rəhbərləri ilə mülki müdafiə məşğələsi keçirilmişdir



Muxtar respublikada Fövqəladə Hallar Nazirliyi tərəfindən mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, təhsil, səhiyyə, sənaye, tikinti və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması, əhalinin maarifləndirilməsi, təbliğat və təşviqat sahələrində məqsədyönlü tədbirlər həyata keçirilir. Belə tədbirlərdən biri Şahbuz rayonunda tibb müəssisələrinin rəhbərləri ilə keçirilən mülki müdafiə məşğələsi olmuşdur.

Məşğələni giriş sözü ilə Fövqəladə Hallar Nazirliyinin bölmə rəisi, mayor Rəcəb Səfərov açaraq tədbirin mahiyyəti və "Naxçıvan Muxtar Respublikasında tibb xidmətinin təşkili" mövzularında iştirakçılara ətraflı məlumat vermişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur. Nazirliyin baş məsləhətçisi, dövlət qulluqçusu Əbülfəz Qafarov mülki müdafiənin daşınan əmlakı, yəni fərdi mühafizə vasitələri, cihazları, texniki vasitələr və xüsusi əmlak haqqında, radioaktiv, kimyəvi və bioloji zədələnmə ocaqlarında ilk yardım dəstəsinin açılmasına qoyulan tələblər və fəaliyyətin təşkili, yanğın təhlükəsizliyi qaydaları haqqında tibb müəssisələrinin rəhbərlərinə məlumat vermişdir.

Şahbuz Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin bölmə rəisi, daxili xidmət mayoru Adəm Kərimov səhiyyə müəssisələrində və yaşayış yerlərində yanğın təhlükəsizliyi qaydaları, dəm qazının yaranma səbəbləri haqqında iştirakçılara ətraflı məlumat vermişdir.

Sonda iştirakçıların sualları cavablandırılmış, mövzulara uyğun slayd və videomateriallar əyani olaraq göstərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Axtarışlar öz bəhrəsini verir

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun gənc əməkdaşı ornitoloq Hüseyn Rəsulzadənin əmək fəaliyyətinə başladığı ilk günlərdən apardığı tədqiqat işlərinin uğurlu nəticələri institut rəhbərliyinin və həmkarlarının diqqətini cəlb etmişdir. Onun əldə etdiyi daha bir yeni uğur təkcə Azərbaycanda fəaliyyət göstərən ornitologiya üzrə mütəxəssislərin deyil, həmçinin Hüseyn müəllimlə fəal əməkdaşlıq edən yaxın-uzaq xarici ölkə alimlərinin də xüsusi marağına səbəb olmuşdur.

Bildiyimiz kimi, köçəri quşların Avrasiya-Afrika köç yolu üzərində yerləşməsi, əlverişli təbii-coğrafi şəraiti, yaşam mühitinin müxtəlifliyi muxtar respublika ərazisində zəngin növ müxtəlifliyinə malik quşlar faunasının formalaşmasına zəmin yaratmışdır. Uzun illər bölgə ornitofaunası üzrə xüsusi tədqiqat işləri aparılmış və dəyərli elmi nəticələr əldə edilmişdir. Bununla belə, ilin bütün fəsillərində təbiətə öz təşəbbüsü ilə səfərlər edən gənc ornitoloq özünün yeni elmi məlumatları ilə faunamız haqqında elmi təsəvvürləri daha da genişləndirir. Hüseyn Rəsulzadə Araz Su Anbarının aşağı hissəsinin sol sahil düzənliyində, Araz Su Elektrik Stansiyasına yaxın ərazidə müasir, yüksək optiki imkanlara malik avadanlıqların tətbiqi ilə ilk dəfə olaraq muxtar respublikamızın faunasında yeni quş növünü – üçbarmaq qağayını (latınca adı Rissa tridactyla) aşkar etmişdir.



Qeyd edək ki, üçbarmaq qağayı Güllütkimilər dəstəsinin Qağayılar fəsiləsinə mənsubdur. Ədəbiyyat məlumatlarına görə, faunamızın yeni sakini – qağayının həyatı açıq su hövzələri ilə bağlıdır, Holarktika zoocoğrafi vilayətində geniş yayılmış quşdur. 2018-ci ildə Azərbaycanda "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunda ilk dəfə müşahidə edilmişdir.

Ortaboylu quş olub digər qağayı növlərindən qara pəncələri və uçuş lələklərinin qara uclarında ağ ləkələrin yoxluğu ilə fərqlənir. Pəncələrdə arxa barmağın yoxluğu əsas təyinedici əlamətdir, onun yerində kiçik qabarıq görünür. Boynunda halqa şəklində qara zolaq var. Bədənin rəngi quşun fərdi inkişafı ilə əlaqədar olaraq dəyişilir. Quyruğun sonundakı qara zolaq mərkəzdən kənarlara doğru ensizləşir və quyruqda çökək görünüş təəssüratı yaradır.

Quşun qidasını başlıca olaraq kiçik balıqlar, xərçənglər və molyusklar təşkil edir, onları suya cumaraq əldə edirlər. Sahilə atılmış balıq torlarına ilişmiş heyvanat qalığından da həvəslə faydalanırlar. Muxtar respublika şəraitində üçbarmaq qağayının həyat tərzinin bioloji və ekoloji xüsusiyyətlərinin izlənilməsi nəzərdə tutulmuşdur.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Elan

"Naxçıvan" Universiteti İdarəetmə kafedrasında boş olan dosent vəzifəsini tutmaq üçün müsabiqə elan edir.

*İdarəetmə kafedrası- 1 yer (dosent)*

Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

***Ünvan: Naxçıvan şəhəri, Babək məhəlləsi 1, "Naxçıvan" Universiteti şəhərciyi***
***Telefon: (036)545-07-45***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 11